# Azərbaycan investorlar üçün cəlbedici ölkədir

## The future of Azerbaijan's economy



The skyline, with the Flame Towers, of Baku is seen at sunset, Azerbaijan

Image: REUTERS/Stoyan Nenov

Written by
Ilham Aliyev, President, Azerbaijan

Regardless of the ongoing deep economic and financial crisis in the world, Azerbaijan is doing its best to protect its economy against the negative repercussions.

**_Davos Dünya İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətlilik qabiliyyətinə görə 40-cı yerə, MDB məkanında isə yenidən birinci yerə layiq görmüşdür_**

Hazırkı qlobal iqtisadi sarsıntılar bazar qanunlarından yox, beyin mərkəzlərinin və supergüclərin ambisiyalarından bəhrələnir ki, bu da əsasən neft istehsal edən ölkələrin maliyyə-iqtisadi sisteminə mənfi təsir edir. Son dövrlər neftin qiymətinin kəskin aşağı düşməsi ölkəmizə valyuta axınını xeyli dərəcədə azaltmaqla yanaşı, həm də əvvəlki vasitələrlə özünün maliyyə-iqtisadi sistemini qorumaq imkanlarını xeyli dərəcədə məhdudlaşdırmışdır. Nəticədə manatın devalvasiyası qaçılmaz prosesə çevrilmişdir. Buna baxmayaraq, Azərbaycan hökuməti siyasi, iqtisadi və sosial sahədə sabitliyi qoruyub saxlamağa, ümumdünya iqtisadi böhranının Azərbaycana mənfi təsirini azaltmağa çalışır. Azərbaycan hökuməti hətta bütün sosial layihələrin tam şəkildə icra edilməsinə, əhalinin rifah halının aşağı düşməməsinə, bunun üçün yeni müəssisələrin, iş yerlərinin açılmasına, sahibkarlığın inkişafının stimullaşdırılmasına və digər tədbirlərin davam etdirilməsinə qərar vermişdir.

Prezident İlham Əliyev Davos İqtisadi Forumunun rəsmi saytında "Azərbaycan iqtisadiyyatının gələcəyi" adlı məqaləsində qeyd edib: "Dünyadakı siyasi, hərbi və maliyyə böhranının dərinləşməsi şəraitində iqtisadi inkişafı saxlamaq, əlbəttə ki, böyük nailiyyətdir. Neftin qiyməti 2015-ci il ərzində üç dəfə aşağı düşmüşdür. Ona görə də bizim gəlirlərimiz də kəskin şəkildə azalmışdır, təbii ki, büdcə gəlirləri və eləcə də büdcə xərcləri. Biz 2015-ci ildə büdcə xərclərinə böyük qənaət edə bilmişik. Əfsuslar olsun ki, dünyada gedən proseslər 2016-cı il üçün də nikbin əsaslar vermir. İndiki vəziyyətdə hökumət qarşısında duran əsas vəzifə makroiqtisadi sabitliyi təmin etmək, inflyasiyanı normal səviyyədə saxlamaqdır. 2015-ci ilin yekunlarına görə inflyasiya 4 faizdən az olmuşdur. Biz 2016-cı il ərzində də bu rəqəmi ən aşağı səviyyədə saxlamağa çalışmalıyıq. Azərbaycanda iqtisadi və maliyyə sektorunun şəffaflaşması prosesini davam etdiririk. Bu baxımdan Davos Dünya İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətlilik qabiliyyətinə görə 40-cı yerə, MDB məkanında isə yenidən birinci yerə layiq görmüşdür."

Hazırda ölkədə süni qiymət artımının qarşısının alınması məqsədilə bir sıra davamlı tədbirlər həyata keçirilir. Yeni bazar infrastrukturunun yaradılması və inkişafı, topdansatış bazalarının genişləndirilməsi, yeni "yaşıl market"lər" şəbəkəsinin və fermer mağazalarının təşkili şübhəsiz ki, yaxın gələcəkdə əlverişli bazar mühitini formalaşdıracaq. Kənd təsərrüfatının inkişafının müasir metodlar müstəvisinə keçirilməsi, aqrar sektorun modernləşməsi, aqroparkların yaradılması ilə bağlı atılan əməli addımlar, intensiv fermer modelinə dəstək tədbirləri də kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabitliyinə təsir edəcək. Məhsul istehsalçılarının problemlərinin həllinə yardım məqsədilə "fermer evləri""nin yaradılmasına start verilməsi, regionlarda əsas diqqətin informasiya məsləhət xidmətinin təşkilinə yönəldilməsi isə son nəticədə aqrar bazarda sivil münasibətlərin formalaşmasına, qiymətlərin sabitləşməsinə öz müsbət təsirini göstərəcək. Bunlardan əlavə, kənd təsərrüfatı məhsullarının müasir satış yarmarkalarının infrastrukturunun genişləndirilməsi və həmin işlərin əksər bölgələrdə təşkil edilməsi məhsulların bazara çıxışını asanlaşdıracaq, qiymətlərin süni artımının qarşısını alacaq.

Azərbaycan investorlar üçün cəlbedici ölkə kimi yüksək imicini bu gün də qoruyub saxlayır. Xarici investorlar əsasən neft sektoruna üstünlük versələr də, ölkə üçün indi iqtisadiyyatın qeyri-neft sektoruna daha böyük həcmdə investisiyaların cəlb edilməsi, bunun hesabına əlavə müəssisələrin və iş yerlərinin yaradılması, ixrac potensialının gücləndirilməsi və idxaldan asılılığın aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə aqrar sektorda reallaşdırılan nəhəng tutumlu investisiya layihələri, həyata keçirilən genişmiqyaslı islahatlar yeni məqsədlərə köklənməyə imkan verir. İqtisadiyyatın ixrac qabiliyyətinin artırılması, keyfiyyətli kənd təsərrüfatı məhsullarının ixracı sahəsində ənənəvi bazarlarda ölkəmizin mövqeyinin gücləndirilməsi, yeni bazarların müəyyənləşdirilməsi azalan neft gəlirlərinin bir qismini bərpa etməyə imkan verəcək.

Prezident İlham Əliyev hər zaman ölkəmizdə liberal bazar iqtisadiyyatının, azad sahibkarlığın inkişafına impuls verən addımlar atıb və bütün dövlət qurumlarına özəl biznesə müdaxilə edilməməsinə dair göstəriş verib. Dövlətimizin başçısı iqtisadi və sosial bölmələrdə neqativ hallara qarşı barışmaz mövqeyini nümayiş etdirməklə azad biznesin və şəffaflığın ən böyük təminatçısı olduğunu təsdiqləyib. Müasir şəraitdə Azərbaycanda iqtisadi inkişafı səciyyələndirən xüsusiyyətlərdən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə idarəetmə sahəsində ardıcıl struktur islahatlarının aparılması və makroiqtisadi sabitliyin əldə olunmasıdır. Belə bir şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi və mövcud imkanlardan daha səmərəli istifadə olunması, idarəetmədə nəzarət amilinin təkmilləşdirilməsi və gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, onunla əlaqədardır ki, demokratiyanın inkişafı, əhalinin hüquqi müdafiəsinin artırılması şəraitində hər bir ölkədə maliyyə resurslarından istifadənin şəffaflığını təmin etmək iqtidarında olan səmərəli maliyyə nəzarəti sistemi iqtisadi demokratiyanın mühüm ünsürlərindən birinə çevrilir. Demokratiyanın mühüm göstəricilərindən biri də hökumətin ictimai rəyə münasibəti əsasında müəyyənləşir. İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə, müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. "Əsl siyasət konkret real iş görməkdir" devizinə sadiq qalan cənab İlham Əliyevin xalqa layiqli rəhbərlik missiyasının qayəsində hər bir vətəndaşın maraq və mənafeyini maksimum dərəcədə təmin edən mükəmməl idarəetmə sisteminin yaradılması istəyi dayanır. Həmin məqsədin reallaşdırılmasını, ümumən ölkənin üzləşdiyi bütün problemlərin həllini haqlı olaraq sosial-iqtisadi problemlərin aradan qaldırılmasında, yüksək tərəqqidə görən dövlət başçısı bu sahədə inamlı addımlar atır.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***